# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ

# Q A N U N U

**“Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 24-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda aşağıdakı dəyişikliklər edilsin:

1.1. Preambulada “Qanun” sözündən sonra “Naxçıvan Muxtar Respublikasının” sözləri əlavə edilsin, “aktların” sözü “aktlarının” sözü ilə əvəz edilsin.

1.2. 1-ci maddə üzrə:

1.2.1. 1.0.1-ci maddədə “fərmanla” sözü “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarı ilə” sözləri ilə əvəz edilsin;

1.2.2. 1.0.7-1-ci maddədən “, Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin fərman və sərəncamlarının” sözləri çıxarılsın.

1.3. 2-ci maddə üzrə:

1.3.1. 2.2-ci maddədən “III,” rəqəmi çıxarılsın;

1.3.2. 2.3-cü maddədən “, fərman” sözü çıxarılsın;

1.3.3. 2.4-cü maddədə “Fərman” sözü “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarı” sözləri ilə əvəz edilsin;

1.3.4. 2.5-ci maddə ləğv edilsin.

1.4. 3.3.2-ci maddə ləğv edilsin və aşağıdakı məzmunda 3.3.2-1-ci maddə əlavə edilsin:

“3.3.2-1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin sərəncamları;”.

1.5. 4.1.1-ci, 75.0.2.1-ci və 84.1.3-cü maddələrdə “1-3-cü” sözləri “1-ci və 2-ci” sözləri ilə əvəz edilsin.

1.6. 12.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

“12.2. Normativ hüquqi aktların kolliziyasına yol verməmək məqsədilə qanun və ya Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarının layihələri ilə yanaşı onların qəbul olunması ilə əlaqədar ləğv, dəyişikliklər edilməli və hazırlanmalı olan qanun və ya Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarının layihələri də eyni zamanda təqdim edilməlidir.”.

1.7. 18-ci maddə ləğv edilsin.

1.8. 19-cu maddə üzrə:

1.8.1. 19.1-ci maddə yeni redaksiyada verilsin:

“19.1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 40-cı maddəsinin I hissəsinə uyğun olaraq, Naxçıvan Muxtar Respublikasının Konstitusiyası və Azərbaycan Respublikası Prezidentinin aktları əsasında, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının və Naxçıvan Muxtar Respublikası qanunlarının, Azərbaycan Respublikasının Prezidentinin aktlarının icrasını təmin etmək məqsədi ilə Naxçıvan Muxtar Respublikasının Konstitusiyası, qanunları və Azərbaycan Respublikasının Prezidentinin aktları ilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə qərarlar formasında normativ hüquqi aktlar qəbul edir.”;

1.8.2. 19.4-cü maddədə “Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin aktı” sözləri “Azərbaycan Respublikasının Prezidentinin aktı” sözləri ilə əvəz edilsin.

1.9. 20.1-ci maddə yeni redaksiyada verilsin:

“20.1. Mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları Naxçıvan Muxtar Respublikası Konstitusiyasından və Naxçıvan Muxtar Respublikası qanunlarından irəli gəldiyi halda Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aktına əsasən, yalnız Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aktları ilə onların səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə qəbul edilə bilər.”.

1.10. 23.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

“23.1. Normativ hüquqi aktların müxtəlif növlərinin layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydasının xüsusiyyətləri, onlar üçün texniki-hüquqi tələblər “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanunun 27-ci maddəsinə uyğun olaraq müəyyən edilir.”.

1.11. 24.0.1-ci maddədən “Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin fərmanı,” sözləri çıxarılsın.

1.12. 32-ci maddədə “fərmanlarla” sözü “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları ilə” sözləri ilə əvəz edilsin.

1.13. 41-ci maddə üzrə:

1.13.1. 41.4-cü maddədən “Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin və ya” sözləri çıxarılsın;

1.13.2. 41.6-cı maddə ləğv edilsin.

1.14. 43-cü maddə üzrə:

1.14.1. 43.2-1.1-ci maddədə hər iki halda “fərman” sözü “Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar” sözləri ilə əvəz edilsin;

1.14.2. 43.6-cı maddə ləğv edilsin.

1.15. 44-cü maddə üzrə:

1.15.1. 44.1-ci maddədən “və Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinə imzalanmaq üçün təqdim edilən qanun” sözləri çıxarılsın;

1.15.2. 44.2.2-ci maddə ləğv edilsin.

1.16. 46.3-cü maddə ləğv edilsin.

1.17. 56-cı maddədən "və Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinə imzalanmaq üçün təqdim edilən qanunlarda" sözləri çıxarılsın.

1.18. 68.2.2-ci maddədən "Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi ilə və ya onun tapşırığı ilə" sözləri çıxarılsın.

1.19. 69.0.1-ci və 78.1-ci maddələrdən "və fərmanlar" sözləri çıxarılsın və həmin maddələrdə "Ali vəzifəli şəxsi" sözləri "Ali Məclisinin sədri" sözləri ilə əvəz edilsin.

1.20. 75-ci maddəyə aşağıdakı məzmunda 75.0.3.2-1-ci maddə və "Qeyd" hissəsi əlavə edilsin:

"75.0.3.2-1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin sərəncamları;

**Qeyd:** Bu Qanunun 75.0.1.3-cü və 75.0.3.2-ci maddələrində nəzərdə tutulan fəsillərə "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanunu qüvvəyə minənədək qəbul edilmiş hüquqi aktlar daxil edilir.".

1.21. 80.1-ci maddədən ", fərmanlar" sözü çıxarılsın.

**Maddə 2.** Keçid müddəası

"Naxçıvan Muxtar Respublikası Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanunu qüvvəyə minənədək Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsi tərəfindən icra hakimiyyəti sahəsində qəbul edilən normativ hüquqi aktlarda dəyişiklik edilməsi, həmin normativ hüquqi aktların qüvvəsinin dayandırılması və ləğv edilməsi Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən həyata keçirilir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **BƏXTİYAR MƏMMƏDOV**

Naxçıvan şəhəri, 14 iyul 2026-cı il

№ 25-VII QN